**“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi Fərmanlarına dəyişikliklər edilməsi və bəzi Fərmanlarının və Sərəncamlarının qüvvədən düşmüş hesab edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına aşağıdakı dəyişikliklər edilsin:

1.1. “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 555; 2003-cü il, № 3, maddə 153, № 10, maddə 570; 2005-ci il, № 2, maddə 69, № 4, maddələr 301, 307, № 8, maddə 721, № 10, maddə 919; № 12, maddələr 1104, 1117; 2006-cı il, № 7, maddə 591, № 9, maddə 743, № 11, maddə 945, № 12, maddə 1057; 2007-ci il, № 6, maddə 618; № 8, maddələr 759, 765, № 10, maddə 943, № 11, maddələr 1098, 1106) Əlavə № 2 - “Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri”nin 21-ci bəndi aşağıdakı redaksiyada verilsin:

| **Sıra №-si** | **Fəaliyyət növlərinin adı** | **Lisenziya verən icra hakimiyyəti orqanı** | **Dövlət rüsumunun məbləği** *(manatla)* |
|---|---|---|---|
| **21.** | Sığorta sektorunda fəaliyyət: | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | |
| **21.1.** | sığorta fəaliyyəti | | 22000 |
| **21.2.** | təkrarsığorta fəaliyyəti | | 22000 |
| **21.3.** | sığorta brokeri fəaliyyəti: | | |
| **21.3.1.** | hüquqi şəxs olan sığorta brokerləri | | 22000 |
| **21.3.2.** | fiziki şəxs olan sığorta brokerləri | | 1000 |
| **21.4.** | sığorta agenti fəaliyyəti: | | |
| **21.4.1.** | hüquqi şəxs olan sığorta agentləri | | 1000 |
| **21.4.2.** | fiziki şəxs olan sığorta agentləri | | 200 |

1.2. “Auditorların mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 613 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 761) adında, preambulasında, 1.1-ci, 1.3-cü, 1.5-ci və 2-ci bəndlərində “Auditorların mülki” sözü “Auditorun peşə” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı fərmanları və sərəncamları qüvvədən düşmüş hesab edilsin:

2.1. "Sığorta fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 16 oktyabr tarixli 371 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991-ci il, № 19-20, maddə 358);

2.2. "Hava, dəmiryol, dəniz və avtomobil nəqliyyatı sərnişinlərinin dövlət tərəfindən mütləq sığortalanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 21 fevral tarixli 582 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 5, maddə 131);

2.3. "Azərbaycan Respublikasında dövlət müəssisələri, birliklər və təşkilatlarının əmlakının dövlət tərəfindən mütləq sığortalanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 8 iyun tarixli 832 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 11, maddə 434);

2.4. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 84 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 68);

2.5. "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 avqust tarixli 180 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 490; 2001-ci il, № 10, maddə 640; 2005-ci il, № 5, maddə 404);

2.6. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 103 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 611);

2.7. "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 may tarixli 406 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 333);

2.8. "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 468 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 7, maddə 530);

2.9. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 978 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 771);

2.10. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 981 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 774).

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 sentyabr 2008-ci il
№ 827